Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun örtülü sahə laboratoriyasında Moldovskiy ranniy və Vaqabond sortlarının çarpazlaşdırılmasından alınmışdır.

Sort, qızdırılan və qızdırılmayan yaz istixanalarında və həmçinin qış istixanalarında qış-yaz və keçid mərhələlərində becərmək üçün yaradılmışdır.





Bənövşə II sortotip qrupuna malik olub, kolu adi, indeterminant tipli və orta yarpaqlanandır.

Vegetasiya dövründə əsas gövdənin orta hündürlüyü istixananın tipindən və becərmə dövründən asılı olaraq 1,7-2,5 m-ə qədər dəyişir.



Yarpağı adi tipli olub, yaşıldır. Bitki üzərində ilk çiçək salxımları 9-10 yarpaqdan sonra əmələ gəlir və növbəti salxımlar 2-3 yarpaqdan sonra növbələşirlər.



Salxımların meyvəbağlama qabiliyyəti 75-90%-ə qədərdir.

Meyvələr yastı-yumru formalı (indeks 0,8-1,0), səthi hamar və ləkəsizdir.

Düzgün quruluşlu 3-6 ədəd toxum kamerası vardır.

Meyvədə toxumların orta sayı 130-150 ədəddir. 1000 toxumun orta kütləsi 2,8-3,2q-dır.

Bənövşə sortunun 1987-1990-cı sınaq illərində 1 kv.m-dən orta əmtəəlik məhsuldarlığı 10,0-11,0, ən yüksək məhsuldarlığı isə 13,0-15,0 kq/m$^2$ olmuşdur.

Məhsul vermənin ilk ayı ərzində hər kv.m-dən 4,8-5,5 kq əmtəəlik məhsul götürülür ki, bu da nəzarət Moskovskiy osenniy sortuna nisbətən 2,8-3,3 kq çoxdur.

19861988-ci illərdə Bənövşə sortunu blok tipli qış istixanalarında keçid dövründə becərilən hər kv.m-dən 14,0 kq-a qədər məhsul yığılmışdır.



Yüksək məhsuldar olmaqla yanaşı sort fuzarioz və kladosporoz xəstəliklərinə qarşı davamlıdır.

Təzə meyvələrin dad keyfiyyəti 4,5 balla qiymətləndirilmişdir.

Bənövşə sortunu 1994-cü ildən respublikada istixanalar şəraitində becərilmək üçün rayonlaşdırılmışdır.

**Azərbaycan Respublikası**
**Kənd Təsərrüfatı Nazirliyi**
**Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu**



# Pomidor
# BƏNÖVŞƏ
# (istixana sortu)